# İNNOVASİYADA DƏYƏRLƏR

## RƏQƏMSAL TEXNOLOGİYALARIN YENİDƏN MƏNALANDIRILMASINDA QADINLARIN İŞTİRAKI



BMT-nin QADINLARIN STATUSU ÜZRƏ KOMİSSİYASININ 67-Cİ SESSİYASINA BEYNƏLXALQ BƏHAİ İCMASININ BƏYANATI

# İNNOVASİYADA DƏYƏRLƏR

## RƏQƏMSAL TEXNOLOGİYALARIN YENİDƏN MƏNALANDIRILMASINDA QADINLARIN İŞTİRAKI

### BMT-nin QADINLARIN STATUSU ÜZRƏ KOMİSSİYASININ 67-Cİ SESSİYASINA BEYNƏLXALQ BƏHAİ İCMASININ BƏYANATI

Sürətlə dəyişən qlobal gerçəklik insan nəslinin bir-birinə bağlılığını və bununla bərabər rəqəmsal texnologiyalardan artmaqda olan asılılığı daha dərindən anlamağa vadar edir. Çox sayda qadınlar, o cümlədən, bu texnologiyaya əli çatmayan və ya bu cür texnologiyaların onların icmalarına necə təsir edəcəyini müəyyən etmək imkanı olmayan qadınlar üçün bu, daha böyük təcridolma və marginallaşma ilə nəticələnir. Amma hətta texnologiyalara çıxış və bənzər məsələlərə aid suallar həllini tapsa da, daha dərin bir meydanoxuma qalır. İnsan qadiriyyətini genişləndirən, insanlığın ən ali dəyərlərini əks etdirən firavan və uzlaşmış bir sivilizasiya qurmağa töhfə vermək üçün alət kimi istifadə olunmalı olan çoxlu texnologiyalar, bunun yerinə, insan təbiəti və kimliyi, tərəqqi və məqsəd barədə təhrif olunmuş anlayışları gücləndirir. Tərtibatı etibarilə cəmi bir neçə imtiyazlı nəfərin idarəçiliyində olan çoxlu texnologiyalar materialist dəyərlərlə dəstəklənir və sosial, etik və ruhani nəticələri nəzərə alınmadan geniş surətdə tətbiq edilir. Texno-

*Belə bir cəhdin mərkəzində, modern dünyanın insanlığın kollektiv dəyərlərinə əsaslanan alətlərinin kütlələrin öz potensialını açmaqda onlara kömək etməsini təmin etməkdə qadınların verə biləcəyi baxışlar və töhfələr dayanır.*

logiya zərərli dünyagörüşləri ilə formalaşdıqda hər bir fərdə təsir etsə də, istifadəçilərin əhəmiyyətli bir bazasını təşkil edən və bir çox hallarda birbaşa hədəf istehlakçıları təmsil edən qadınlar və qızlar üçün bu dərin bir meydanoxuma kimi çıxış edir. Rəqəmsal alətlər insan işlərinin çeşidli sahələrində getdikcə daha da çox istifadə edildikcə, innovasiya prosesini əsaslandıran dəyərlər və niyyətlərin dürüstcəsinə nəzərdən keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə bir cəhdin mərkəzində, modern dünyanın insanlığın kollektiv dəyərlərinə əsaslanan alətlərinin kütlələrin öz potensialını açmaqda onlara kömək etməsini təmin etməkdə qadınların verə biləcəyi baxışlar və töhfələr dayanır.

Texnologiya insan qabiliyyətinin yüksəldilməsində və icmaları əlaqələndirməkdə qüdrətli bir alət ola bilər. Amma hər hansı bir alət kimi, texnologiya da və onun yaratdığı mühit də fayda gətirərək yaxud mövcud ədalətsizlikləri gücləndirərək saysız-hesabsız yollarla istifadə oluna bilər. Konstruktiv səviyyədə, onlayn şəbəkələr və hərəkatlar qadınların və qızların üzləşdikləri çoxsaylı meydanoxumalar barədə agahlığı yüksəldən vacib vasitələr kimi xidmət edərkən, həm də əvvəllər xəyala belə gəlməyən yollarla iştirak çevrəsini də genişləndirdi. Lakin kökündə dar dünyagörüşü və ya mənfəət barədə məhdud baxış olan texnologiyalar həmçinin,

kənarlaşdırmaq, qısnamaq, istismar və ya hətta sıxışdırmaq üçün istifadə olunmuşdur. Rəqəmsal texnologiyalar dəyər nöqteyi-nəzərindən neytral deyil. Ənənəvi inkişaf paradiqmasına bənzər olaraq texnoloji innovasiya da təməl materialist elementlərin dərin təsirinə məruz qalır.

Tərəqqi barədə elementar anlayış çox vaxt mal istehlakını daha yüksək səviyyəli rifaha bərabər tutur. Müxtəlif cür sosial önyarğı və tərəfkeşlik, habelə, insan təbiəti və dar mənfəət mühakimələri ilə idarə olunan tərəqqi barədə baxışlar çox vaxt rəqəmsal texnologiyaların tərtibatı və dizaynına daxil olur və bununla da, məsələn, elmi cəhətdən sübut edilmiş alışqanlıq narahatlıqlarına rəğmən, ekranda maksimum oturmağa təhrik etmək üçün tərtib edilmiş alqoritmlər vasitəsilə istifadəçilərə yeridilir. Ona görə də bu cür texnologiyaların yaradılması və istifadəsinin əsasında duran fərziyyə və normaların dürüstcəsinə nəzərdən keçirilməsi son dərəcə mühümdür. Stabil bir dünya nizamının kərpicləri kimi etibarlılıq, həqiqətə sədaqət və məsuliyyət hissi kimi keyfiyyətləri əhatə edərək insan təbiəti barədə dolğun və tam konsepsiyalar rəqəmsal texnologiyalarda getdikcə daha çox öz ifadəsini necə tapa bilər? İcmalar öz prioritetlərini kollektiv olaraq müəyyən etmək və öz yerli şərtləri daxilində texnologiyaların təsiri barəsində məşvərət prosesinə necə cəlb oluna bilərlər?

*Stabil bir dünya nizamının kərpicləri kimi etibarlılıq, həqiqətə sədaqət və məsuliyyət hissi kimi keyfiyyətləri əhatə edərək insan təbiəti barədə dolğun və tam konsepsiyalar rəqəmsal texnologiyalarda getdikcə daha çox öz ifadəsini necə tapa bilər? İcmalar öz prioritetlərini kollektiv olaraq müəyyən etmək və öz yerli şərtləri daxilində texnologiyaların təsiri barəsində məşvərət prosesinə necə cəlb oluna bilərlər?*

Baxmayaraq ki, hər bir fərdə və icmaya bu cür alətlərin əsasında duran problemli dəyərlər özünəməxus şəkildə təsir edir, bu dəyərlərin texnologiyalara tamlıqla daxil edilməsi çoxlu qadın və qızlara, xüsusilə də onların necə görüntülənmələri və ya fərz edilən özünü təkmilləşdirmə adına daim artan dərəcədə maddi şeylərin istehlakçısı olmağa şirnikləşdirilmələri ilə ziyanlı təsir göstərmişdir. Məhz bu cür təcrübələrə görə, habelə, innovasiyanı əhatə edən qərarçıxarma mühitlərində mövcud olan mədəniyyətin patriarxal xarakterinə görə, bu cür texnologiyaların necə lazımi qaydada və şüurlu şəkildə yaradılması və istifadəsini daha yaxşı başa düşmək üçün qadınların iştirakı son dərəcə vacibdir.

Qadınların iştirakının genişləndirilməsi son nəticədə bunu etiraf etməyə əsaslanacaq ki, baxışların çoxluğu insan mövcudluğunun bütün diapazonuna cavab verən bir gələcək qurmaq üçün əsas şərtdir. Ənənəvi olaraq kişi dominantlı sektor daxilində aşkar təmsilçilik qayğılarını nəzərə aldıqda bu cür texnologiyaların məsuliyyətli dizaynı, istifadəsi və yayılması ilə bağlı, habelə rəqəmsal məzmunun yaradılmasında qərarların verilməsində qadınların iştirakı prioritetləşdirilməlidir. Amma son məqsəd olmamaqla ədalətli təmsilçilik həm də dominant rəqabət və qeyri-bərabərlik modellərinin öz yerini əməkdaşlığa, kollektiv araşdırmaya və ümumun rifahın qayğılarına verməsinə qabil edən şərait kimi xidmət edir. Bir çox sahələrdə olduğu kimi, ən yüksək dərəcəli dəyişiklik üstünlük təşkil edən mədəniyyətdən böyük ölçüdə faydalanmış kəslərdən tələb olunacaqdır.

Texnoloji innovasiyalara aid mühit və proseslərdə mədəniyyətin dəyişilməsindən əlavə, qadınların iştirakı – araşdırma proseslərində insan baxışının üfüqlərinin doğrudan da genişləndirilməsi – texnologiyanın inkişafını yönəltmək üçün yeni paradiqmaların

yaradılmasına töhfə verə bilər. Rəqəmsal texnologiyalarla bağlı olan etik mühakimələrin araşdırılması qabiliyyəti cinsindən asılı olmayaraq istənilən kəs tərəfindən sərgilənə bilsə də, bir çox qadınların patriarxal dünyagörüşünün sırınmasından meydana çıxan təcrübələri mötədillik, ədalət, müxtəliflik və gələcək nəticələr üçün qayğılanmaq kimi keyfiyyətlərə əsaslanan daha mükəmməl modellərin inkişafına spesifik bəsirətlər təklif etmək mövqeyinə çıxarır. Bunu edərkən, qadınlar bu cür keyfiyyətlərin texnologiyanın inkişafını daha ardıcıl şəkildə əsl ehtiyac barədə bilgi ilə aydınlatmasını təmin etməkdə kömək edə bilər.

Daha geniş diapazonda keyfiyyətlər texnoloji sektoru aydınlatmağa daxil olduqca, bu sahənin potensialını daha da genişləndirmək imkanı açılır. İnnovasiya və inkişafı boğan maneədən uzaq olmaqla gender bərabərliyi prinsipinə sadiq qalmaqla xarakterizə olunan daha bütöv iştirak və araşdırma formaları insanlığın kollektiv dəyərlərini daha çox əks etdirən innovasiya formalarını ortalığa çıxara bilər.

*İnnovasiya və inkişafı boğan maneədən uzaq olmaqla gender bərabərliyi prinsipinə sadiq qalmaqla xarakterizə olunan daha bütöv iştirak və araşdırma formaları insanlığın kollektiv dəyərlərini daha çox əks etdirən innovasiya formalarını ortalığa çıxara bilər.*

Milli səviyyədə, texnoloji innovasiyaya aid mühit və proseslərə çoxsaylı baxışların daxil edilməsini təmin etmək üçün siyasət işlənib hazırlanmalıdır. Texnologiya insanın imkanlarını genişləndirir. Ona görə də diqqət edilməlidir ki o, daxilində insan həyatının çiçəkləndiyi

> *Texnologiya insanın imkanlarını genişləndirir. Ona görə də diqqət edilməlidir ki o, daxilində insan həyatının çiçəkləndiyi əxlaqi nizamı pozmasın, əksinə, onu genişləndirsin.*

əxlaqi nizamı pozmasın, əksinə, onu genişləndirsin. Bu, təbii olaraq, qadınların tam və mənalı iştirakını dəstəkləmək üçün mexanizmləri cəlb edəcəkdir. Hökumətlər də onlayn insan haqları pozulmalarından qadınların, uşaqların və kövrək icmaların qorunmasının təmin edilməsi kimi, indiki təhdidlərə cavab verməkdə daha proaktiv rol almalı olacaqlar.

Beynəlxalq səviyyədə də baxışların müxtəlifliyinin təmin edilməsi texnologiyaların onlara xas olan qlobal miqyasını və işləməsini nəzərə aldıqda, onların nəticələr barədə məsuliyyət hissi ilə yaradılması, istifadəsi və yayılmasını mənalandırmaq üçün zəruri olacaqdır. Bu cəhətdən, BMT-ni, hökumətləri, özəl sektoru, vətəndaş cəmiyyətini, o cümlədən, qadın aktorları rəqəmsal texnologiyaların inkişafını mənalandıran təsirləri və dəyərləri təhlil etmək, həmçinin - bərabərlik, ədalət, hamılıqla iştirak, ləyaqət, etibarlılıq və həqiqəti axtarmaq kimi prinsipləri rəhbər tutaraq - beynəlxalq siyasəti müəyyən etmək vacib olacaqdır. BMT-nin Baş Katibinin təklif etdiyi Qlobal Rəqəmsal Müqaviləyə doğru hərəkət etmək və bu zaman texnoloji innovasiyanın müştərək qlobal dəyərlərlə uyğun olmasının təmin edilməsi onu daha da araşdırmağa dəyən bir təklifdir. Tərəqqi barədə daha bütöv konsepsiyaların yaradılmasında ümumdaxili məhsulu tamamlamaq üçün ölçülərin yaradılması texnologiyanın tərtib edilməsində yer alan fərziyyələri sorğulamağa kömək edəcəkdir. Bununla bağlı, BMT insanlığın texnoloji innovasiyasının

daha sağlam modelini bəsləyən prosesləri işə salmaq üçün misilsiz bir imkana malikdir. Bu məqsədlə, qadınların baxışının prioritetləşdirilməsi və daxil edilməsi, texnologiyanın inkişafının istiqamətini formalaşdırmaq üçün onların iştirakının asanlaşdırılması son dərəcə mühüm olacaqdır. Rəqəmsal texnologiyaların istifadəsilə qadınların və uşaqların təlim-tərbiyəsinin yüksəldilməsi mexanizmlərinin araşdırılması, həmçinin, onların tam iştirakının, təmsilçiliyinin, müdafiəsinin, onlayn rifahının təmin edilməsinə bu Komissiya kimi mühitlərdə dövri olaraq yenidən baxıla bilər.

❧

Tarixin bu məqamı texnoloji innovasiyanı insanlığın topladığı ən yüksək bilik və müdrikliklə bir ahəngə gətirmək üçün bir fürsət təqdim edir. Tərəqqi və insan təbiəti ilə bağlı ənənəvi anlayışlar insan rifahı barədə daha dolğun konsepsiyalara cavab verməyə və firavan bir sivilizasiya yaratmağa, o cümlədən, rəqəmsal texnologiyaların mənalandırılması və irəli aparılmasına cavab verməyə qadir deyil. Təməldə Təməldə duran bu fərziyyələri sorğula -maq üçün geniş bir diapazonda baxışları irəli gətirmək maddi rifahı etik, sosial və ruhani mühakimələrlə balanslaşdıran bir gələcəyi cızmaqda çox vacib olacaqdır. Qadınların, xüsusilə də həddən artıq materialist dünyagörüşü ilə marginallaşmış qadınların səsləri və baxışları əvəzedilməz olacaqdır, onların ciddi və mənalı iştirakı isə

*Tarixin bu məqamı texnoloji innovasiyanı insanlığın topladığı ən yüksək bilik və müdrikliklə bir ahəngə gətirmək üçün bir fürsət təqdim edir.*

texnologiyanın inkişafı ətrafında yeni mədəniyyət və anlayış modellərinin yaradılması üçün ilkin şərt olacaqdır. İnsan təbiəti və tərəqqi barədə daha yüksək konsepsiyaları əks etdirən bütöv və tam bir modelin qurulması, öz cəmiyyətlərinin yaxşılaşdırılması üçün konkret icmaların ehtiyac və prioritetlərinə uyğun olaraq istifadə olunacaq alətlərin yaradılması - sonsuz imkanlar təqdim edən texnoloji innovasiya üçün baxış budur.

Beynəlxalq
Bəhai
İcması

Müəllif hüquqları © 2022 Beynəlxalq Bəhai İcması

866 Birləşmiş Millətlər Qərargahı, Suit 120
Nyu-York, NY 10017, ABŞ
www.bic.org